# **AQRAR ISLAHATIN ƏSASLARI HAQQINDA**
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının aqrar-sənaye kompleksinin (aqrar bölmənin) islahatının əsas istiqamətlərini və onların hüquqi təminatını müəyyən edir.
Qanunun müddəaları aqrar islahat sahəsində digər normativ aktlar üçün əsasdır.

## **I fəsil**
## **ÜMUMİ MÜDDƏALAR**

Maddə 1. **Aqrar islahatın məqsədi və vəzifələri**
İslahatın məqsədi aqrar bölməni böhrandan çıxarmaq, iqtisadiyyatı sabitləşdirmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqdır.
İslahatın vəzifələri torpaq və əmlak üzərində yeni mülkiyyət münasibətlərinin formalaşdırılmasından, bazar iqtisadiyyatına uyğun istehsal və infrastruktur sahələrində müxtəlifnövlü təsərrüfatların yaradılması və inkişafı ilə istehsal münasibətlərinin dəyişdirilməsindən və təkmilləşdirilməsindən ibarətdir.
Maddə 2. **Aqrar islahatın əsas istiqamətləri**
Aqrar islahatın əsas istiqamətləri aşağıdakılardır:
aqrar bölmədə yeni mülkiyyət münasibətlərinin formalaşdırılması;
torpaq, meliorasiya və su təsərrüfatının islahatı; müxtəlifnövlü təsərrüfatların yaradılması; aqrar bölmənin dövlət təminatı.
Maddə 3. **Aqrar islahatın əsas prinsipləri**
Aqrar islahatın əsas prinsipləri aşağıdakılardır:
dövlətin iqtisadi siyasəti ilə aqrar islahatın uzlaşması;
islahatın aparılmasında sosial ədalətin və könüllülüyün təmin edilməsi;
əmtəə istehsalçılarına təsərrüfat fəaliyyətinin təşkilində və öz məhsullarına sərəncam verməkdə tam sərbəstliyin təmin edilməsi;
respublikanın kənd təsərrüfatı xüsusiyyətlərinin nəzərə alınması;
ətraf mühiti mühafizə tələblərinə əməl edilməsi;
kəndin sosial inkişafı və əhalinin sosial müdafiəsi.